# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# S Ə R Ə N C A M I

**Bakı şəhəri** **№1/65** **27 noyabr 2019-cu il**

**“Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya”da nəzərdə tutulan tədbirlərin tətbiqinə dair işçi qrupunun yaradılması barədə**

Yeni dövrün çağırışlarına uyğun olaraq müstəqil auditin qarşısında duran yeni vəzifələrin həll edilməsi, rəqəmsal iqtisadiyyat şəraitində auditor xidmətinin keyfiyyətini və çeşidini artırmaq, kölgə iqtisadiyyatına qarşı mübarizədə müstəqil auditin rolunu daha da gücləndirmək və auditə ictimai etimadın yüksəldilməsini təmin etmək məqsədilə 2019-cu ildə işlənib hazırlanmış “Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiyada” nəzərdə tutulan tədbirlərin vaxtnda və keyfiyyətlə həyata keçirilməsinə nail olunması məqsədilə **qərara alıram:**

1. “Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya”da nəzərdə tutulan tədbirlərin tətbiqi üzrə Auditorlar Palatasının aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

**İşçi qrupunun rəhbəri:**

Yunis Salayev – “BDO Azərbaycan” MMC-nin direktoru, Palatanın Şurası yanında Auditdə innovasiyaların tətbiqi və informasiya siyasəti üzrə komitənin sədri.

**İşçi qrupunun üzvləri:**

Altay Cəfərov – sərbəst auditor, Palata Şurasının üzvü;

Aygün Səfərova – “Alfa-Audit” QSC-nin auditoru;

Əlibala Məhərrəmzadə – “Kaspian Audit Kompani” MMC-nin direktoru;

Fuad Əliyev – “F.N. Audit Servis” MMC-nin direktoru;

İlqar Vəliyev – "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının İdarəedici partnyoru, Palata Şurasının üzvü;

İslam Bayramov – “MB AUDİT” MMC-nin direktoru;

Qoşqar Əhmədov – Auditdə innovasiyaların tətbiqi şöbəsinin müdiri;

Murat Karakaş – "KPMG Audit Azərbaycan" MMC-nin idarəedici partnyoru;

Namiq Abbaslı – “ANR Audit” MMC-nin direktrou, Palatanın Şurası yanında Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin sədri;

Nəcəf Talıbov – “TNM Audit” MMC-nin direktoru, Palatanın Şurası yanında Elm və auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri;

Nihad Axundov – “NZA Audit” MMC-nin direktoru, Palatanın Şurası yanında Auditor fəaliyyətinə dair hüquqi məsələlər üzrə komitənin üzvü;

Səftər Vəlizadə – "SR Audit Solutions" MMC-nin direktoru, Palatanın Şurası yanında Beynəlxalq Audit Standartları və Maliyyə Hesabatlarının Beynəlxalq Standartları üzrə komitənin üzvü;

Zamin Hüseynov – "ABAK-Az Crowe Ltd" MMC-nin direktoru, Palatanın Şurası yanında Auditor təşkilatlarının inkişafına dəstək üzrə komitənin sədri.

2. İşçi qrupuna tapşırılsın ki, üç ay müddətində “Auditin innovativ inkişafının əsas istiqamətləri üzrə konsepsiya”da nəzərdə tutulan tədbirlərin tətbiqinə dair təkliflərini təqdim etsin.

3. Sədrin müşaviri F.Qarayevə və Xarici əlaqələr, beynəlxalq təşkilatlarla iş və ictimaiyyətlə əlaqə şöbəsinin müdiri F.Kamalovaya tapşırılsın ki, bir həftə müddətində bu sərəncamın mətninin Palatanın internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilməsi təmin edilsin.

**Palatanın sədri** **Vahid Novruzov**